AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikası
Təhsil Nazirliyinin
1463 saylı 31 avqust 2012-ci il
tarixli əmri ilə təsdiq edilmişdir.

ƏSLİ İLƏ DÜZDÜR

# ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L   P R O Q R A M I

**İxtisasın (proqramın) şifri və adı: 060803 – Turizm və otelçilik**

BAKI – 2012

## 1.Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin **060803 - Turizm və otelçilik** ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı", «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

1.2. Tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələri **060803 - Turizm və otelçilik** ixtisası üzrə magistr hazırlığını bu Təhsil Proqramı ilə həyata keçirir.

1.3. Strukturda istifadə olunan işarələr:
**ÜK** – ümummədəni kompetensiyalar
**PK** – peşə kompetensiyaları

## 2. 060803 – Turizm və otelçilik ixtisasının xarakteristikası

2.1. Təhsil Proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən elmi-ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **060803 – Turizm və otelçilik**<br><br>**İxtisaslaşmalar:**<br>*- Sosial-mədəni sahələrdə xidmətlərin təşkili*<br>*- Sanatoriya-kurort işinin təşkili*<br>*- Turizm işi*<br>*- Otelçilik*<br>*- Turizmin bələdçisi*<br>*- Səyahət agentliyi və turoperator*<br>*- Turizmdə nəqliyyat xidmətləri*<br>*- Turizm və sosial-mədəni servis xidməti*<br>*- Beynəlxalq turizm və ölkəşünaslıq* | Magistr | 2 il (qiyabi forma üzrə təhsil müddəti 6 ay artıqdır) | 120 |

## 3. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

3.1. **Magistrin ixtisas xarakteristikası.**
Magistr nəzəri prinsip və tədqiqat metodları haqqında ümumi təsvirə və geniş biliyə malik olmalı, peşə hazırlığı tələb edən elmi-tədqiqat işi aparmağa və pedaqoji fəaliyyətə hazır olmalı, peşəkar fəaliyyət çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyi bacarmalıdır.

3.2. **Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

3.2.1. Məzun aşağıdakı ümummədəni kompetensiyalara (ÜK) yiyələnməlidir:
- özünün intellektual və ümummədəni səviyyəsini təkmilləşdirmək və inkişaf etdirmək, yaradıcılı potensialını büruzə vermək və şəxsi keyfiyyətlərini təkmilləşdirmək **(ÜK-1);**
- yeni tədqiqat metodlarının axtarılması və müstəqil öyrənilməsi, peşəkar fəaliyyətin elmi və elm praktiki profilinin mümkün dəyişkənliyinə, sosial-mədəni şəraitin dəyişkənliyinə uyğunlaşmaq **(ÜK-2);**
- elmi, peşəkar və sosial-ictimai fəaliyyət sahəsində fəal ünsiyyətə hazır olmaq **(ÜK-3);**
- fəal sosial mobillik **(ÜK-4);**
- elmi-tədqiqat və elmi-istehsalat işlərinin təşkilində, kollektivin idarə edilməsində vərdiş bacarıqlardan istifadə, qoyulan məqsədə çatmaq üçün əlverişli mənəvi-psixoloji iqlim yaratmaq, şə

və kollektiv fəaliyyətin nəticələrinin keyfiyyətini qiymətləndirmək, kollektivlə işləmək (**ÜK-5**);
- peşəkar kompetensiyası çərçivəsində qəbul edilmiş qərarlara görə məsuliyyət daşımaq, qeyri-standart qərarlar qəbul etmək, turizm fəaliyyətində problemli vəziyyəti həll etmək (**ÜK-6**);
- öz şəxsi davranış və həyat tərzi baxımından ətrafdakılara müsbət nümunə göstərmək (**ÜK-7**);
- mürəkkəb və qeyri-standart vəziyyətlərdə təşəbbüs göstərmək, bütün məsuliyyəti öz üzərinə götürmək (**ÜK-8**);
- turizm sahəsində müasir nəzəri və praktiki biliklərdən istifadə edə bilmək (**ÜK-9**);
- müasir informasiya texnologiyaları vasitəsi ilə yeni məlumatlar və bilikləri, o cümlədən innovasiya sahəsində müstəqil əldə etmək və əməli fəaliyyətində istifadə etmək, öz intellektual potensialını genişləndirmək və dərinləşdirmək qabiliyyəti (**ÜK-10**);
- turizm sənayesinin iri sosial layihələrinin hazırlanması və həyata keçirilməsində, hüquqi və etik normalara dair dərin biliklərdən istifadə etmək, peşəkar fəaliyyətin nəticələrini qiymətləndirmək (**ÜK-11**);
- elmi-tədqiqat kollektivində(laboratoriya, studiya və s.) iş bacarıqlarını müstəqil nümayiş etdirmək, yeni ideyalar yaratmaq, dəstəkləmək və öz sərbəst yaradıcılıq potensialını və əməkdaşların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək (**ÜK-12**);
- eksperimental iş aparmaq və səhra tədqiqatları aparmaq, araşdırmaların nəticələrini obyektiv qiymətləndirmək və tətbiq etməyə hazır olmaq, müstəqil işləmək (**ÜK-13**);
- alınan elmi, statistik və digər məlumatları təhlil etmək, ümumiləşdirmək və tənqidi şəkildə nəzərdən keçirmək (**ÜK-14**);
- müasir turizm sənayesinin imkan və potensialı çərçivəsində, magistr proqramının profili və məqsədinə uyğun olaraq müasir informasiya texnologiyaları və ofis avadanlıqlarından səmərəli istifadə etmək (**ÜK-15**);
- həyata keçirilmiş işlərin nəticələrini tərtib etmək, təqdim və məruzə etmək, təhlil etmək (**ÜK-16**);
- digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq və müzakirələr aparmaq, beynəlxalq arenada işləmək (**ÜK-17**).

**3.2.2.** Məzun aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

***Elmi-tədqiqat sahəsi üzrə:***
- elmin müasir nailiyyətlərindən və qabaqcıl texnologiyadan turizm sahəsindəki elmi-tədqiqat işlərində istifadəyə hazır olmaq (**PK-1**);
- vəzifələr qoymaq və tədqiqatın metodlarını seçmək və turizm sahəsində elmi tədqiqatların nəticələri təqdim və izah etmək (**PK-2**);
- turizm sahəsində elmi tədqiqatların nəticələrini hesabatlar, tətbiqi elmi araşdırmalar, məruzələr, referatlar və məqalələr, ictimai müzakirələr formalarında təqdim etmək (**PK-3**);
- innovativ texnologiyaların işlənməsi və turizm sənayesinə tətbiqi qabiliyyətinə, *otellərdə* fəaliyyət mexanizminin öyrənilməsi məqsədilə amadeus, qalileo, opera, fidelio və s. proqramlarından istifadə etmək (**PK-4**);
- turizm və otelçilik fənləri sahəsində dərin biliklərə əsaslanaraq turizm və sosial-mədəni servis xidmətinin təşkili, turizm bazarının marketinq təhlili, həmçinin turizm məhsulunun hazırlanması, onun realizə edilməsi üsullarından istifadə etmək (**PK-5**);
- turizm-rekreasiya ehtiyatlarının potensial imkanlarının aşkar edilməsi, kurort-sanatoriya işinin təşkilində təbii ehtiyatların qiymətləndirilməsi, turizm şirkətlərinin işinin təkmilləşdirilməsi, otelçilik sahəsində beynəlxalq təcrübədən istifadə məqsədilə müstəqil təhlil aparmaq (**PK-6**).

***İstehsalat-texnoloji sahəsi üzrə:***
- turizm sənayesində proseslərin səmərəliliyinin qiymətləndirilməsi və monitorinq bacarığı (**PK-7**);
- turizm sənayesində innovasiya-texnoloji risklərin qiymətləndirilməsi bacarığı (**PK-8**);
- müasir standartlar sisteminin turizm sənayesinə tətbiqi bacarığı (**PK-9**)

*kilati-inzibatçılıq sahəsi üzrə:*

- personalla işin qayda və metodlarına, turizm sənayesi müəssisələrindəki personalın iş keyfiyyətini və səmərəliliyini qiymətləndirmək metodlarına yiyələnmək, kollektivlərin elmi-tədqiqat işlərinə rəhbərlik etmək **(PK-10)**;
- turizm müəssisəsinin konsepsiyasını formalaşdırmaq, səmərəli strategiya hazırlamaq və turizm sənayesi müəssisələrinin risklərinin qiymətləndirilməsinin fəal siyasətini formalaşdırmaq **(PK-11)**;
- müxtəlif səviyyələrdə (regional, yerli) turizm sənayesinin innovasiyalı layihələrinin qiymətləndirilməsi və texniki-iqtisadi əsaslandırılmasını həyata keçirmək **(PK-12)**;
- təbii-iqtisadi və sosial proseslərin təhlilində modelləşdirmə, informasiya texnologiyaları, təlimin informasiya texnologiyası üsullarından istifadə etmək **(PK-13)**;
- qeyri-texnoloji bilikləri (o cümlədən humanitar) qısaca və dürüst ifadə etmək **(PK-14)**;
- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyə **(PK-15)**;
- müvafiq fəaliyyət və metodları təklif etmək və planlaşdırmağa, onların qısa və uzunmüddətli nəticələrini təhlil etməyə **(PK-16)**;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri yaradıcı şəkildə müəyyənləşdirmək və ortaya qoya bilməyə, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilməyə **(PK-17)**;
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamani müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilməyə, həmçinin potensial nəticələri müəyyənləşdirmək və/və ya qiymətləndirə bilməyə **(PK-18)**;
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamani şəxsi davranışlarını tənqidi şəkildə qiymətləndirməyə **(PK-19)**;
- fəaliyyət və təhsil sahəsi ilə bağli problemləri azərbaycan və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək və əsaslandırmağa, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak edə bilməyə **(PK-20)**;
- innovativ yanaşma tələb edən mürəkkəb və gözlənilməz şəraitlərdə müstəqil şəkildə fəaliyyət göstərməyə **(PK-21)**;
- təşkilat və ya qrupların strateji fəaliyyəti ilə bağlı məsuliyyət daşımağa **(PK-22)**;
- mürəkkəb şəraitlərdə etik qaydalara uyğun şəkildə davrana bilməyə, şəxsi davranışların etik aspektləri, imkanları, məhdudiyyət və sosial rolunu anlamağa, fəaliyyət və təhsil sahəsi ilə bağlı məsələlərdə əsaslandırılmış qiymətləndirmə aparmağa **(PK-23)**;

*Layihələndirmə üzrə:*

- turizm sənayesinin tələblərinə uyğun yeni turizm layihələrini hazırlamaq, layihələndirmədə prioritet istiqaməti müəyyən etmək, lazımi normativ-texniki sənədləri hazırlamaq **(PK-24)**;
- regional, bələdiyyə və digər səviyyələrdə turizmin inkişafının strategiyasını və uyğun layihələri hazırlamaq **(PK-25)**;
- turizm sənayesi müəssisələrinin fəaliyyətində təhlil və qərar qəbulu metodlarının tətbiqinə hazır olmaq **(PK-26)**.

*Servis üzrə:*

- turizm məhsulunun və turizm sənayesi xidmətlərinin standartlaşdırma, sertifikatlaşdırma və keyfiyyət üzrə normativ sənədləri hazırlamaq və tətbiq etmək **(PK-27)**;
- turizm və qonaqpərvərlik sahəsində, o cümlədən xidmət sahələrində təşkilati işləri aparmaq **(PK-28)**;
- alternativ xidmət növlərinin müəyyənləşdirilməsi və tətbiq edilməsi prosesini həyata keçirmək **(PK-29)**.

*Pedaqoji sahə üzrə:*

- texniki-peşə, ali təhsilin bakalavriat səviyyəsində ixtisaslaşmalara uyğun olaraq Sosial-mədəni sahələrdə xidmətlərin təşkili, Sanatoriya-kurort işinin təşkili, Turizm işi, Otelçilik, Turizm bələdçisi, Səyahət agentliyi və turoperator, Turizmdə nəqliyyat xidmətləri, Turizm və sosial-mədəni servis xidməti, Beynəlxalq turizm və ölkəşünaslıq fənlərindən müvafiq olanı tədris etmək, fənnin ümumi mənzərəsini müstəqil qurmaq **(PK-30)**;

- elektron kitabxanalardan, A, B, C, D seriyalı jurnallardan məlumatları əldə etmək **(PK-31);**
- tədris, təlim və ya digər üsullarla öz biliklərini başqasına ötürə bilməyə **(PK-32).**

## 4. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə və təhsilin məzmununa qoyulan minimum tələblər

### 4.1. Peşə fəaliyyətinin xarakteristikası.

**4.1.1. 060803 – Turizm və otelçilik** ixtisası üzrə magistrlərin peşə fəaliyyətinin əsas istiqamətləri:
- elmi-tədqiqat;
- pedaqoji;
- istehsal-texnoloji;
- təşkilatı-inzibatçılıq;
- servis;
- layihələndirmə və s.

### 4.1.2. Hazırlıq səviyyəsinə qoyulan tələblər:

*Elmi-tədqiqat sahəsi üzrə:*
- turizm sahəsində kompleks elmi-tədqiqatlar aparmaq;
- turizm sənayesinin səmərəli fəaliyyəti, həmçinin istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə turizm xidmətləri bazarının sistemli təhlili və onun inkişafını proqnozlaşdırmaq;
- innovasiya texnologiyalarının hazırlanması və turizm sənayesində xidmətlərin təqdimi prosesinə onların tətbiqi, turizm fəaliyyətinin elmi əsaslandırmaq;
- turizm fəaliyyətində innovasiyaların səmərəliliyini qiymətləndirmək;
- hadisə, real proses və ehtiyatların öyrənilməsində elmi, təşkilati və tətbiqi məsələlərin həllində qabaqcıl elmi naliyyətlərdən və beynəlxalq təcrübədən istifadə etmək;
- Azərbaycanın və xarici ölkələrin qabaqcıl təcrübəsindən istifadə etməklə turizm sahəsində aparılan elmi-tədqiqat işlərini təhlil etmək və nəticələri ümumiləşdirmək;
- konfranslar, seminarlar, simpoziumlar, sərgilər hazırlamaq və keçirmək;
- elmi nəşrlər hazırlamaq və redaktə etmək;
- elmi-tədqiqatların nəticələrini təqdim etmək.

*Pedaqoji sahə üzrə:*
- mühazirə oxumaq;
- seminar aparmaq;
- tədris etdiyi fənnə aid mövzular üzrə müasir tələblərə uyğun mətnlər hazırlamaq;
- ixtisasına və tədris etdiyi fənlərə aid metodik vəsaitlər, dərsliklər və dərs vəsaitləri hazırlamaq;
- seminar və müzakirələrdə mövzu haqqında öz fikirlərini ifadə etmək, mövzunu ümumiləşdirərək şəraitə uyğun fikrini çatdırmaq;
- fənnin tədrisi üçün ümumi mənzərəni qurmaq;
- müxtəlif səviyyəli qruplar üçün treyninq kursları təşkil etmək və s.

*İstehsalat-texnoloji sahə üzrə:*
- istehlakçıların tələblərinə cavab verən turizm məhsullarını hazırlanmaq və satışı proseslərinin təkmilləşdirmək, turizm məhsullarının iqtisadi səmərəliliyini qiymətləndirimək;
- turizm məhsulunun satışı prosesinin innovasiya-texnoloji risklərini müəyyənləşdirmək və qiymətləndirmək;
- turizmdə proqram təminatından istifadə etmək;
- informasiyaların toplanılması və emalında müasir üsullardan istifadə etmək;
- turizm xidmətləri paketini hazırlamaq və təqdimatı həyata keçirmək..

**şkilati-inzibatçılıq sahəsi üzrə:**

- istehlakçıların tələblərinə uyğun turizm məhsullarını formalaşdırılmaq və satışı proseslərini, turizm sənayesi müəssisələrində kollektivin işini təşkil və idarə etmək;
- istehlakçıların tələbinə uyğun olaraq turizm məhsullarını hazırlamaq və satışında taktiki və strateji qərarları qəbul etmək;
- müxtəlif səviyyələrdə (regional və bələdiyyə orqanları) turizm fəaliyyətini monitorinqi və qiymətləndirmək;
- turizm-rekreasiya zonalarının və komplekslərini təşkil və idarə etmək;
- elmi-tədqiqat qruplarının işinin təşkil etmək;
- fəaliyyət nəticələrini proqnozlaşdırmaq üçün elmi yenilikləri tətbiq etmək;

*Servis üzrə:*

- istehlakçilərın kompleks turizm xidmətlərinin keyfiyyət standartlarını işləyib hazırlamaq və tətbiqi, təhlükəsizlik sistemlərini yaratmaq;
- turizm məhsulunun standartlaşdırma və sertifikatlaşdırılma üzrə fəaliyyətini həyata keçirmək.

*Layihələndirmə üzrə:*

- turizm layihələrinin hazırlanması məqsədini formalaşdırmaq və turizm fəaliyyətinin layihələndirilməsində prioritetləri müəyyən etmək;
- ölkə, regional və yerli səviyyədə turizm xidmətləri göstərilməsini operativ və strateji layihələndirmək və planlaşdırmaq;
- turizm sənayesi müəssisələrini fəaliyyətini strateji və operativ planlaşdırmaq və layihələndirmək;
- turizm-rekreasiya zonaları və komplekslərini layihələndirmək.

**4.2. Təhsilin məzmununa qoyulan minimum tələblər**

□ İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümünün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq vərdişlər baxımından) | Fənn bölümləri üzrə kreditlər in sayı | Fənnin kodu və adı | Fənn üzrə kreditlər in sayı | Qazanılması nəzərdə tutulan kompet nsiyaların kodla |
|---|---|---|---|---|---|
| | **Təhsil hissəsi** | | | | |
| **MHF – B00** | **Humanitar fənlər bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr<br>**bilməlidir:**<br>- xarici dildə neytral səs informasiyasının və ritminin özünəməxsusluğunu, turizm sahəsi üçün səciyyəvi olan tələffüzün üslubunun əsas xüsusiyyətlərini, ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahidləri həcmində leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, öyrənilən dil ölkələrinin mədəniyyəti və adət-ənənələrini, nitq etiketi qaydalarını;<br>-Azərbaycan ali təhsil sistemini, ali məktəbin, tələbə və müəllimlərin vəzifələrini, ali təhsil müəssisəsində təlim prosesi və təhsilin | 14 | **MHF – B01**<br>*Xarici dil*<br><br>**MHF – B02**<br>*Ali məktəb pedaqogikası*<br><br>**MHF – B03**<br>*Psixologiya*<br><br>**MHF – B04**<br>*Seçmə fənn** | 6<br><br><br>4<br><br><br><br>2<br><br><br>2 | ÜK-1<br>ÜK-2<br>ÜK-3<br>ÜK-4<br>ÜK-5<br>ÜK-6<br>ÜK-7<br>ÜK-8<br>ÜK-9<br>ÜK-1<br>ÜK-1<br>ÜK-1<br>ÜK-1<br>ÜK-1<br>ÜK-1<br>ÜK-1 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | məzmununu, didaktika və onun müasir problemlərini, mühazirə və ona verilən müasir tələbləri, tərbiyə və özünütərbiyə, rəhbərlik və idarəetmə məsələlərini, elmi tədqiqat (müəllim və tələbə) işinin metodikasını;<br>-psixologiyanın obyekti, predmeti və metodlarını, psixologiyanın əsas istiqamətlərini, psixikanın quruluşunu, şüurluluq və qeyri- şüurluluğun qarşılıqlı münasibətini, tələbə psixologiyasını və s.<br><br>**bacarmalıdır:**<br>-turizm və otelçilik ixtisasına dair mətnləri oxumağı, ixtisasa dair internetdən götürülmüş mətnləri tərcümə etməyi, annotasiya, referat, tezis, tərcümeyi-hal və s. yazmağı.<br>-mühazirə mətni hazırlamağı, mühazirə oxumağı, seminar məşğələləri planlaşdırmağı və aparmağı, turizm və otelçilik sahəsində elmi-tədqiqat işini yerinə yetirməyi, bununla bağlı fərziyyələr irəli sürməyi, eksperiment aparmağı və nəticələri tətbiq etməyi;<br>-hər bir tələbəyə psixoloji baxımdan fərdi qaydada yanaşmağı, tələbələri eksperimentə cəlb etməyi, qrup və kollektivlə işləmək bacarığına, bu sahədə tədris prosesinin pedaqoji-psixoloji tərəflərini əsaslandırmaq qabiliyyətinə və s.<br><br>**yiyələnməlidir:**<br>xarici dildə lüğətin köməyi ilə oxumaq və yazmaq vərdişlərinə, ali təhsil müəssisəsində tədris və tədqiqat işləri aparmağa, tələbələrə psixoloji yanaşma keyfiyyətlərinə və s. | | | | ÜK-17 |
| **MİF-B00** | **İxtisas (ixtisaslaşma) fənləri bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr<br>**bilməlidir:**<br>- dövlətin turizm siyasəti konsepsiyasını;<br>- turizm-rekreasiya resurslarını qiymətləndirmək metodlarını;<br>- turizm-rekreasiya zonaları və mərkəzlərinin perspektivliyini;<br>- turizm layihələrinin əhəmiyyətini;<br>- turizmdə marketinq konsepsiyasını;<br>- turizm bazarının öyrənilməsi metodlarını;<br>- servis xidməti növləri və qaydalarını;<br>- turizm şirkətlərinin fəaliyyət mexanizmini;<br>- transmilli otellərdə idarəçilik konsepsiyasını;<br>- otellərin idarə olunmasının nəzəri əsaslarını;<br>**bacarmalıdır:**<br>- turist tələbatına uyğun turizm məhsulunun | 76 | **MİF – B01**<br>*Turizmin, turizm sənayesinin müasir problemləri*<br><br>**MİF – B02**<br>*Turizmin, turizm sənayesinin tarixi və metodologiyası*<br><br>**MİF – B03**<br>*Ali məktəb tərəfindən müəyyən* | 4<br><br><br><br>2<br><br><br><br>4 | PK-1<br>PK-2<br>PK-3<br>PK-4<br>PK-5<br>PK-6<br>PK-7<br>PK-8<br>PK-9<br>PK-1<br>PK-1<br>PK-1<br>PK-1<br>PK-1<br>PK-1<br>PK-1<br>PK-1<br>PK-1 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | hazırlanmasını;<br>- turizm – rekreasiya, kurort-sanatoriya ehtiyatlarından səmərəli istifadə olunmasını;<br>- alternativ turizm sahələrinin yaradılması imkanlarını müəyyən etməyi;<br>- turizm bazarını öyrənmək məqsədilə marketinq araşdırmalarını və onun təhlilini;<br>- turizm şirkətinin işinin səmərəli təşkilini;<br>- biznes planının hazırlanmasını;<br>- otelin idarə olunmasını;<br>- layihələrin planlaşdırılması, idarə olunması metodlarını;<br>- turizm sektorunda informasiya texnologiyalarının tətbiqini;<br>-beynəlxalq turizm əlaqələrinin genişləndirilməsi yollarını və s.<br><br>**yiyələnməlidir:**<br>- turizm ehtiyatları və potensialının qiymətləndirilməsi vərdişlərinə;<br>- idarəçilik və sahibkarlıq vərdişlərinə;<br>- liderlik və qərar qəbul etmə vərdişlərinə;<br>- insan resurslarının idarə olunması və təşkilatı davranış vərdişlərinə;<br>- standart bronlaşdırma sistemlərindən (Amadeus, Qalileo, Opera, Fidelio və s.) istifadə vərdişlərinə | | *edilən fənn*<br><br>**MİF –B04**<br>*İxtisaslaşmaya ayrılan fənlər***<br><br>**MİF – B05**<br>*Seçmə fənn** | 42<br><br><br><br>24 | PK-19<br>PK-20<br>PK-21<br>PK-22<br>PK-23<br>PK-24<br>PK-25<br>PK-26<br>PK-27<br>PK-28<br>PK-29<br>PK-30<br>PK-31<br>PK-32 |
| **MET-B00** | **Elmi-tədqiqat işləri**<br>Magistr elmi-tədqiqat işini yerinə yetirmək nəticəsində aşağıdakıları **bilməli** və **bacarmalıdır:**<br>- elmi-tədqiqat işlərini planlaşdırmağı;<br>- tədqiqat mövzusu seçməyi;<br>- ədəbiyyat siyahısının tərtibini;<br>- elmi-tədqiqat işi aparmağı;<br>- elmi-tədqiqat işinin nəticələrini təhlil etməyi, onu digər müəlliflərin nəticələri ilə müqayisə etməyi;<br>- alınmış nəticələrin praktik əhəmiyyətini və onun tətbiqi imkanlarını müəyyənləşdirməyi;<br>- elmi-tədqiqat işinin gələcəkdə davam etdirilməsi imkanlarını müəyyənləşdirməyi;<br>- yerinə yetirilmiş tədqiqat işinin müdafiəsini;<br>- elmi-tədqiqat işinin nəticələrinin çap üçün hazırlanmasını;<br>- elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrdə iştirak etməyi, onların nəticələrini ümumiləşdirməyi və magistrlik dissertasiyasında istifadə etməyi və s. | | Elmi-tədqiqat təcrübəsi<br><br>Elmi-pedaqoji təcrübə<br><br>Magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi | 6<br><br>6<br><br>18 | ÜK-3<br>ÜK-5<br>ÜK-6<br>ÜK-10<br>ÜK-11<br>ÜK-12<br>ÜK-13<br>ÜK-14<br>ÜK-16<br>PK-1<br>PK-2<br>PK-3<br>PK-5<br>PK-6<br>PK-8<br>PK-9<br>PK-10<br>PK-11<br>PK-12<br>PK-24<br>PK-25 |
| | **Kreditlərin ümumi cəmi** | **120** | | **120** | |

*Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*
***İxtisaslaşmalar üzrə səriştələr (kompetensiyalar) və buna müvafiq fənlər ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

**4.3.** İxtisas üzrə magistr təhsil proqramının yerinə yetirilməsi müddəti:
ümumi həftələrin sayı – 94
o cümlədən:
- nəzəri təlim – 45 həftə
- təcrübələr (elmi-tədqiqat və elmi-pedaqoji) – 8 həftə
- imtahan sessiyaları – 15 həftə
- magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi – 12 həftə
- tətillər – 14 həftə

## 5. Maddi-texniki, tədris bazası və kadr potensialı

**5.1.** Ali təhsil müəssisəsinin **060803 – Turizm və otelçilik** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompyuter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**5.2.** Fənlərin tədrisi, bir qayda olaraq, ali təhsil müəssisələrinin elmi dərəcəsi və ya elmi adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər cəlb oluna bilər.

**5.3.** Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, həmin təhsil müəssisəsində çalışan professor-müəllim heyətinin elmi adı və ya elmi dərəcəsi olan nümayəndələri və ya həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Tədris prosesinin forma və metodları

**6.1.** Magistrantın nəzəri təlimi və pedaqoji hazırlığı mühazirə, məşğələ, seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formalarda həyata keçirilir.

**6.2.** Magistr hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və praktik iş və digər metodlardan istifadə edilə bilər.

**6.3.** **060803 – Turizm və otelçilik** ixtisası üzrə magistr hazırlığında elmi-tədqiqat və elmi-pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq müvafiq təşkilatlarda, yaxud ali məktəblərin kafedra və laboratoriyalarında keçirilə bilər.

## 7. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

**7.1.** Yekun dövlət attestasiyası magistrlik dissertasiyasının müdafiəsindən ibarətdir. Dissertasiyanın məzmununa, həcminə, strukturuna qoyulan tələblər və onun müdafiəsi qaydaları Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilir.

**7.2.** Təhsilalanların biliyinin qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında həyata keçirilir.

**7.3.** Yekun Dövlət Attestasiyası nəticəsində məzunlara magistr ali elmi-ixtisas dərəcəsi və dövlət nümunəli diplom verilir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun direktoru

________________A.Mehrabov

«____» ___________ 2012-ci il

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Ali və orta ixtisas təhsili şöbəsinin rəisi

______________İ.Mustafayev

«____»__________2012-ci il

Səhiyyə, rifah və xidmət ixtisasları qrupu üzrə Dövlət Təhsil Standartları hazırlayan işçi qrupun sədri

________________N.Qasımov

«___» ___________ 2012-ci il

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi Metodiki-Şurasının «Coğrafiya» bölməsinin sədri

__________________ V.Əfəndiyev

«___» _______________ 2012-ci il